AZƏRBAYCAN RESPUBLİKASININ HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİ

| | |
|---|---|
| Aktın növü | AZƏRBAYCAN RESPUBLİKASI RABİTƏ VƏ YÜKSƏK TEXNOLOGİYALAR NAZİRLİYİNİN QƏRARI |
| Qəbul edildiyi tarix | 08.10.2015 |
| Qeydiyyat nömrəsi | 0005 |
| Adı | Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin kollegiyasının 2013-cü il 3 oktyabr tarixli 08 nömrəli qərarı ilə təsdiq edilmiş "Rabitə və kommunal xidmətlər üzrə borcların internet vasitəsilə öyrənilməsi üzrə inzibati reqlament"də dəyişikliklər edilməsi barədə |
| Rəsmi dərc edildiyi mənbə | |
| Qüvvəyə minmə tarixi | 17.10.2015 |
| Azərbaycan Respublikasının Vahid hüquqi təsnifatı üzrə indeks kodu | 180.010.000 |
| Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi | 15201510080005 |
| Hüquqi aktın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix | 16.10.2015 |

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 19 iyun tarixli 185 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi haqqında Əsasnamə"nin 5.5.3-cü yarımbəndini rəhbər tutaraq, "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 4 may tarixli 1206 nömrəli Sərəncamının 3.4-cü bəndinin icrası məqsədilə Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin kollegiyasının 2013-cü il 3 oktyabr tarixli 08 nömrəli qərarı ilə təsdiq edilmiş "Rabitə və kommunal xidmətlər üzrə borcların internet vasitəsilə öyrənilməsi üzrə inzibati reqlament"in 3.3.1-ci yarımbəndində qeyd olunan "Bakıelektrikşəbəkə" Açıq Səhmdar Cəmiyyətinin" və "Sumqayıtelektrikşəbəkə" Açıq Səhmdar Cəmiyyətinin" sözləri "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin" sözləri ilə əvəz edilsin.

2. Hüquq və insan resursları şöbəsinə (B. Məmmədov) tapşırılsın ki, bu qərarın Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün 3 gün müddətində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə göndərilməsini təmin etsin.

3. Bu qərar Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinin elektron variantında dərc edildiyi gündən qüvvəyə minir.

4. Nazirin müşavirinə (M.Əmirov) tapşırılsın ki, bu qərarın Azərbaycan Respublikası Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin rəsmi internet səhifəsində yerləşdirilməsini təmin etsin.

5. Sənədlərlə iş və təminat şöbəsinə (İ. Tağıyev) tapşırılsın ki, bu qərarın aidiyyəti üzrə Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi Aparatının struktur bölmələrinə və strukturuna daxil olmayan tabeliyindəki qurumlara göndərilməsini təmin etsin.

6. Qərarın icrasına nəzarət Aparatın rəhbəri V. Zeynalova həvalə edilsin.

**Nazir** **Əli Abbasov**